# KÜRDƏMİR: İQTİSADİ İNKİŞAF YENİ UĞURLARA RUHLANDIRIR

(əvvəli ötən sayımızda)

**Rayonumuzda iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədi ilə 14573 hektar dövlət fonduna məxsus torpaq sahəsinin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmiş və həmin torpaqlarda 5 aqropark yaradılmışdır.Hazırda aqroparklar tərəfindən infrastrukturların yaradılması, torpaqların yaxşılaşdırılması, suvarma şəbəkələrinin qurulması, məhsul saxlama anbarlarının və digər zəruri tikililərin tikintisi, maddi-texniki bazasının genişləndirilməsi sahəsində işlər görülür.**



Bu il aqroparklar tərəfindən 7000 hektaradək sahədə dənli bitkilər və 1090 hektarda pambıq və digər yazlıq əkinləri aparılmışdır. Kənd təsərrüfatının inkişaf etdirilməsində və yüksək məhsuldarlığa nail olunmasında meliorasiya və suvarma sistemləri mühüm rol oynayır. Rayonda torpaqların su təminatının yaxşılaşdırılması sahəsində xeyli işlər görülmüşdür. Bu ilin birinci rübündə 462,7 km uzunluqda kanallar, 110 km dren kollektorları lildən təmizlənmiş, 2,1 km latok kanal, 115 hidrotexniki qurğu cari, 5 nasos və 2 nasos stansiyası əsaslı təmir edilmişdir.

Rayonda heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər görülür. Hazırda iri buynuzlu mal qaranın sayı 65371 başa, qoyun və keçilərin sayı 138406 başa çatmış, heyvandarlıq məhsulları istehsalının dinamik artımına nail olunmuş, bu ilin birinci yarımilliyində ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 16,0 faiz, süd istehsalı 3,8 %, yumurta istehsalı 9,0 faiz, yun istehsalı 4,1 % artmışdır. Rayonda məhsuldar cins heyvanların çoxaldılması tədbirləri davam etdirilir. Lizinq yolu ilə alınmış 217 baş cins düyə artırılaraq 650 başa çatdırılmışdır. Rayonda bu ilin birinci yarımilliyində 1235 baş mal süni mayalandırılmış, 631 baş cinsi yaxşılaşdırılmış bala alınmışdır. Dövlət Proqramının icrası ilə əlaqədar 2019-cu ilin birinci yarımilliyində respublika əhəmiyyətli avtomobil yolunun Kürdəmir şəhəri daxilindən keçən hissəsində və yerli əhəmiyyətli avtomobil yollarında 15503 m2 sahəsində asfat-beton qarışığı ilə çala təmiri işləri aparılmışdır.Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq uzunluğu 34,5 km olan yerli əhəmiyyəti Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidən qurulması ilə əlaqədar yol-tikinti işləri başa çatdırılmış, 34,5 km məsafədə 1-ci və 2-ci qat asfalt örtüyü vurulmiş, hazırda yol çiyinlərinin bərkidilməsi və yol nişanlarının qoyulması işlərinə başlanılmışdır. 2019-cu ilin yanvar-iyun aylarında uzunluğu 37,2 km olan yerli əhəmiyyətli Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunda 27784 m3 torpaq işləri görülmüş, sahəyə karxana və optimal qum çınqıl materialı tökülərək avtoqreyderlə hamarlanmış və ağır katokla kipləşdirilmişdir. Yolda 105600 m2 sahədə asfalt-beton işləri görülmüş, hazırda işlər davam etdirilir.Uzunluğu 14,5 km olan yerli əhəmiyyətli Şilyan-Qarasu avtomobil yolunun yenidən qurulması ilə əlaqədar yol-tikinti işləri başa çatdırılmış, 1-ci və 2-ci qat asfalt örtüyü vurulmuş, hazırda yol çiyinlərinin bərkidilməsi və yol nişanlarının qoyulması işlərinə başlanılmışdır. 3,75 km Yenikənd-Dəyirmanlı avtomobil yolunda yenidənqurma işləri aparılmış, 1-ci qat 3,75 km məsafədə asfalt örtüyü vurulmuşdur.Əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması rayon İcra Hakimiyyətinin daim diqqət mərkəzində olmuşdur.



Rayonun elektrik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində əhalinin elektrik enerjisinə olan tələbatını ödəmək məqsədi ilə 2019-cu ilin birinci yarımilliyində 35/10 kv-luq Şirvan yarımstansiyasında yağ açarları cari təmir edilmiş, 10 ədəd yanmış 10/0,4 kv-luq transformatorlar yenisi ilə əvəz olunmuş, 14 ədədi cari təmir olunmuş, rayon mərkəzində və ayrı-ayrı kəndlərdə 19500 metr açıq naqillər SİP kabellə əvəz olunmuşdur.Rayon ərazisində 705 abonentin sayğacları həyətyanı sahələrdən çıxarılaraq müasir tipli elektron sayğaclarla əvəz olunmuş, 47 ədəd yararsız dayaqlar yeni dayaqlarla əvəz edilmişdir. Dövlət Proqramına uyğun olaraq "Azəriqaz" İstehsalat Birliyinin Kürdəmir Xidmət Sahəsi tərəfindən 2019-cu ilin 6 ayında qaz təchizatı sahəsində bir sıra işlər yerinə yetirilmişdir.2019-cu ilin 6 ayı ərzində istehlakçılara 2,5 milyon manat dəyərində təbii qaz satılmış, ondan 2,7 milyon manatlıq dəyəri, yəni 106 faizi ödənilmişdir.2019-cu ilin 6 ayı ərzində müxtəlif diametrli 2235 p/m qaz xətti yenisi ilə əvəzlənmiş, xidmət sahəsində olan 182 ədəd qaz tənzimləyicilərinə və siyirtmələrə hər ay texniki xidmət göstərilmişdir.Rayonun qazlaşdırılmamış Qarabucaq qəsəbəsində daşıyıcı boru xətləri və mənzillərə qazın verməsi üçün borular işlənilmiş, yaxın zamanda sayğaclaşma işlərinə başlanılacaqdır. Digər Qarabucaq və Qurdbayram kəndlərinin qazlaşdırılması ilə əlaqədar layihə-smeta sənədləri hazırlanmış, yaxın günlərdə yaşayış məntəqələrinin qazlaşdırılmasına başlanılacaqdır və bununla da rayonda qazlaşma işləri 100 faizə çatdırılacaqdır.

2019-cu ilin birinci rübündə Kürdəmir şəhər əhalisinə içməli su və çirkab suların axıdılması üzrə xidmətlərin yaxşılaşdırılması sahəsində müəyyən işlər görülmüşdür. Şəhərə gələn mərkəzi su xətlərində müxtəlif siyirtmələr yenisi ilə əvəz edilmiş, küçə xətlərində su sızmalarının qarşısı alınmış, xətt boyunca təmir işləri həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 mart tarixli sərəncamına uyğun olaraq Kürdəmir rayonunda "Xalça istehsalı emalatxanası"nın əsas tikinti işləri başa çatdırılmış, hazırda ərazidə abadlaşdırma işləri aparılır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzində restoran, yeməkxana, çay evi və "ASAN xidmət"in əsas binasının tikintisi başa çatdırılmış, hazırda xarici və daxili divarların üzlənməsi və kommunikasiya xətlərinin montajı işləri aparılır. Ərazidə abadlıq işlərinə başlanılmışdır."Azpetrol" yanacaq doldurma məntəqəsinin və motel binasının tikintisi başa çatdırılmış, ərazidə abadlıq işlərinə başlanılmışdır.Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən rayon ərazisində məskunlaşmış 563 məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə rayonun Xırdapay kəndinin ərazisindən 13 hektar torpaq sahəsi ayrılmış, hazırda 17 ədəd 4 mərtəbəli ictimai yaşayış binalarında, 432 şagird yerlik məktəb binasında, 140 yerlik uşaq bağçası binasında, klub-icma binasında, inzibati binada, tibb məntəqəsində dəmir beton konstruksiyaların tikintisi başa çatdırılmış, divar və arakəsmələrin hörgüsünə başlanılmışdır. Ərazinin təbii qaz ilə təminatı məqsədi ilə 31,5 km məsafədə xarici qaz xətti, 3,2 km məsafədə isə daxili qaz xətti çəkilmişdir. 3832 p/m məsafədə məhəllədaxili yollar tikilmiş, 366 metr məsafədə xarici su xətti, 1870 p/m məsafədə sahədaxili içməli su xətti, 1717 p/m kanalizasiya xətti çəkilmişdir.Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Respublika Təhsil Nazirliyinə ayrılmış vəsait hesabına rayonun Bağman kəndində 80 şagird yerlik tam orta, Öyləqulu və Təklə kəndlərində isə hər birində 80 şagird yerlik modul tipli ümumi orta məktəbdə tikinti-quraşdırma işləri başa çatdırılmış, məktəblərdə son tamamlama, ərazidə isə abadlıq işləri aparılır. Azərbaycan Respublikası Təhsil Nazirliyinə 2019-cu il üçün ayrılmış vəsait hesabına Kürdəmir şəhər 1 nömrəli tam orta məktəbdə əsaslı təmir işlərinə başlanılmışdır.Qarasu kənd tam orta məktəb binasının tikintisi ilə əlaqədar topoqrafiya işləri aparılmış, layihə-smeta səndləri hazırlanmış, rayon İcra Hakimiyyəti ilə razılaşdırılaraq təsdiq edilmişdir.



Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tapşırığına əsasən 2019-cu il 10 fevral tarixdən rayonda əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmış, 74097 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 3363 nəfəri ambulator, 344 nəfəri stasionar müalicəyə cəlb edilmiş, 191 nəfəri Bakı şəhərinə göndərilmiş, 4 nəfəri üzərində cərrahiyyə əməliyyatı aparılmışdır.

**Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin təbliği rayon İcra Hakimiyyəti Başçısı Aparatının apardığı ideoloji işin başlıca istiqamətini təşkil etmiş, möhtərəm Prezidentin həyata keçirdiyi siyasətin təbliği ilə bağlı məqsədyönlü ictimai-siyasi tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev Mərkəzində müntəzəm olaraq Ulu Öndərimizin irsini öyrənmək məqsədi ilə dəyirmi masalar, konfranslar və dərslər təşkil edilmişdir. Hesabat dövründə gənclərin Milli Ordu sıralarına hərbi xidmətə göndərilməsi və qarşılanması bayram əhval ruhiyyəsində təşkil olunmuş, "Açıq qapı" günlərində hərbi hissələrə səfərlər edilmişdir.2019-cu ilin "Nəsimi" ili elan edilməsi ilə əlaqədar olaraq məktəblərdə aidiyyatı təşkilatlarla birgə müxtəlif mövzularda tədbirlər keçirilmişdir.**

Məzahir ƏHMƏDZADƏ